QANUN № 01 (375), 2026, s. 112-119



**Əlizadə Aytən Ələmşah qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Dövlət hüququ" ixtisaslaşması
üzrə II kurs magistrantı
E-mail: alizada.aytan.alamshah@gmail.com

**UOT 342**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4041**

# İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARININ MƏHDUDLAŞDIRILMASINDA BALANS PRİNSİPİNİN TARİXİ VƏ MAHİYYƏTİ

***Açar sözlər:*** *balans prinsipi, hüquq və azadlıqlar, proporsionallıq, konstitusiya hüququ, insan hüquqları, hüquqi dövlət.*

***Ключевые слова:*** *принцип баланса, права и свободы, пропорциональности, конституционное право, права человека, правовое государство.*

***Keywords:*** *balancing principle, rights and freedoms, proportionality, constitutional law, human rights, rule of law.*

İnsan hüquqları və azadlıqları müasir konstitusiya hüququnun və beynəlxalq hüququn əsas institutlarındandır. İnsan hüquq və azadlıqları və ümumiyyətlə, şəxsiyyətin hüquqi statusu müəyyən üsullar hesabına icra olunmalıdır. Kifayət qədər icra olunma mexanizmi olmayan hüquq və azadlıqlar realizə oluna bilmir və fərdlər belə hüquqları dövlətin təminat verdiyi davranış imkanı kimi deyil, sadəcə, fiksiya kimi qavrayırlar [3, s. 125].

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqları təsbit olunmaqla yanaşı, onların realizə edilməsində mühüm rol oynayan zəruri təminatlar və müdafiə mexanizmi də göstərilmişdir. Müəyyən olunmuşdur ki, insan hüquqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz [1, m. 71].

Lakin nəzərə almaq lazımdır ki, bu hüquqlar mütləq xarakter daşımır; yəni cəmiyyətin və dövlətin maraqları, eləcə də digər fərdlərin hüquqları ilə toqquşduğu hallarda müəyyən qanuni məhdudiyyətlərə məruz qala bilər. Belə ki, insan hüquqları mahiyyət etibarilə ictimai xarakter daşıdığından konkret bir fərdə məxsus sərhədlərlə məhdudlaşmır. Bu onda ifadə olunur ki, bir şəxsin hüquqları digər şəxslərə məxsus hüquq və azadlıqların qüvvədə olduğu yerə qədər mövcuddur. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır [1, m. 71]. Bu baxımdan, bəzən bu hüquqların digər şəxslərin hüquq və azadlıqlarının, eləcə də dövlət təhlükəsizliyinin tələb etdiyi hallarda məhdudlaşdırılması labüd və qaçılmaz olur. Bu məhdudlaşdırma zamanı dövlət orqanları müəyyən tələblərə, xüsusən də balans-tarazlıq prinsipinə riayət etməlidir. Əks təqdirdə, ifrat məhdudlaşdırma, barəsində məhdudiyyətlər tətbiq olunan şəxsin özünün hüquq və azadlıqlarının pozulmasına gətirib çıxara bilər.

Bu məqalənin məqsədi isə insan və vətəndaşın hüquq və azadlıqlarının məhdudlaşdırılması zamanı səlahiyyətli dövlət orqanlarının riayət etməli olduğu əsas qanuni tələbləri müəyyən etmək və hüquq tətbiqetmə praktikasında bu sahədə yaranan əsas çatışmazlıqları müəyyən edərək beynəlxalq təcrübə əsasında onların aradan qaldırılmasına dair mümkün həll yollarını tədqiq etməkdir.

İnsan hüquq və azadlıqlarına tətbiq oluna biləcək sərhədlərin müəyyənləşdirilməsi məsələsində Azərbaycan Respublikasının Konstitusiyası "məhdudiyyət" anlayışını əsas normativ kateqoriya kimi işlətməkdədir. Başqa sözlə, Konstitusiya fərdin davranış imkanlarının hansı hüquqi çərçivələr daxilində həyata keçirilə biləcəyini məhz "məhdudiyyət" termini vasitəsilə ifadə edir.

Ümumi istifadə olunan "məhdudiyyət" anlayışı ilə müqayisədə "hüquqi məhdudiyyət" termini daha dəqiq və normativ xarakter daşıyır. Hüquqi məhdudiyyətlər – hüquq subyektlərinin davranış imkanlarını müəyyən çərçivələr daxilində saxlayan, hüquq normaları ilə təsbit edilmiş sərhədlərdən ibarətdir.

Elmi ədəbiyyatda geniş şəkildə qəbul edilmiş mövqeyə əsasən, hüququn və ya azadlığın məhdudlaşdırılması fərdin fəaliyyət azadlığının hüquq tərəfindən müəyyən olunmuş hədlər daxilində reallaşması deməkdir. Başqa sözlə, məhdudlaşdırma fərdin iradə sərbəstliyinin qanunverici tərəfindən müəyyən edilmiş legitim çərçivə daxilinə salınmasıdır.

Lakin xüsusi olaraq vurğulanmalıdır ki, hansı zərurətdən irəli gəlməsindən asılı olmayaraq, insan və vətəndaş hüquq və azadlıqları məhdudlaşdırılarkən mütləq şəkildə məhdudlaşdırılan hüquqlarla gözlənilən nəticə arasında tarazlıq qorunub saxlanılmalı, müəyyən mütənasiblik olmalıdır.

Ümumiyyətlə, əsas balanslaşdırma qaydası ictimai marağa verilən fayda ilə insan hüquqlarına qoyulan əlavə məhdudiyyət arasında seçim aparmaq üçün ümumi bir meyar müəyyən edir. Bu yanaşma qərar verən subyektə daha yaxşı istiqamət göstərir, balanslaşdırmada geniş sərbəst mülahizəni məhdudlaşdırır və prosesi daha şəffaf, daha strukturlaşdırılmış və daha proqnozlaşdırıla bilən edir.

Bu konsepsiya insan hüquqlarına qoyulan hər bir məhdudiyyətin daim əsaslandırılmalı olduğunu vurğulayır; qərar verənin düşüncə tərzini strukturlaşdırır; şəffaflıq təmin edir; siyasi orqanlarla məhkəmə hakimiyyəti arasında düzgün dialoq yaradır və məhkəmə mülahizəsinin obyektivliyini artırır. Bununla belə, balans konsepsiyası müəyyən tənqidlərə də məruz qalır: bəziləri iddia edir ki, o, bir-biri ilə müqayisə edilməyəcək elementləri balanslaşdırmağa çalışır; digərləri isə balanslaşdırmanın özünün qeyri-rasional olduğunu deyir.

Bununla belə, hazırkı dövrdə demək olar ki, əksər demokratik rejimli dövlətlərin konstitusiyalarında və insan hüquqlarının tənzimlənməsi sahəsində beynəlxalq hüquqi aktlarda insan hüquqlarının bəzi hallarda məhdudlaşdırılmasının mümkünlüyü və bunun üçün riayət edilməli olan əsas tələblər formal şəkildə olsa da, öz əksini tapmışdır.

Belə aktlardan olan 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qeyd olunur ki, hər bir insan elə bir cəmiyyət qarşısında məsuliyyət daşıyır ki, onun şəxsiyyətinin azad və tam inkişafı yalnız o cəmiyyətdə mümkündür. Hər bir insan öz hüquq və azadlıqlarını həyata keçirərkən yalnız o məhdudiyyətlərə məruz qala bilər ki, onlar müstəsna olaraq, başqalarının hüquq və azadlıqlarının lazımı qaydada tanınması və onlara hörmət edilməsinin təmin edilməsi və demokratik cəmiyyətdə əxlaq qaydalarının, ictimai asayişin və ümumi rifahın ədalətli tələblərinin ödənilməsi naminə qanunla müəyyən edilmişdir [8, m. 29].

Həmçinin Türkiyə Cümhuriyyətinin 1982-ci il tarixli Anayasasında qeyd olunur ki, əsas

hüquq və azadlıqlar onların mahiyyətinə xələl gətirmədən yalnız qanunla və yalnız Konstitusiyanın müvafiq maddələrində göstərilən səbəblərə görə məhdudlaşdırıla bilər. Bu məhdudiyyətlər Konstitusiyanın hərfinə və ruhuna, demokratik ictimai quruluşun və dünyəvi respublikanın tələblərinə və ya mütənasiblik prinsipinə zidd ola bilməz [4, m. 13].

Oxşar mövqe Almaniya Federativ Respublikasının (AFR) 1949-cu il tarixli Əsas Qanununda da ifadə olunub ki, bir əsas hüququn qanunla və ya qanuna əsasən məhdudlaşdırılması mümkün olduğu hallarda, həmin qanun ümumi xarakter daşımalı və yalnız ayrı-ayrı hallara şamil edilməməlidir. Bundan əlavə, qanun məhdudlaşdırdığı əsas hüququ müvafiq maddəni göstərməklə açıq şəkildə qeyd etməlidir. Heç bir halda əsas hüququn mahiyyətinə toxunulmasına yol verilmir [5, m 19]. Göründüyü kimi, AFR Əsas Qanunu belə məhdudlaşdırmanın yalnız konkret bir şəxsə ünvanlanmasını qadağan etməklə, onun normativ əsas kimi müəyyən şərtlər daxilində hər kəs barəsində tətbiq edilə biləcəyini nəzərdə tutur.

Mahiyyət etibarilə hüquqların qanunvericiliklə məhdudlaşdırılması zamanı gözlənilməli olan hədlər müasir dövrün əsas aktual problemlərindən olsa da, tarixə nəzər saldıqda belə məhdudlaşdırma ilə insan hüquqları arasında balans prinsipinin mənşəyinin hələ qədim dövrlərə – xüsusilə Roma hüququna dayandığının şahidi oluruq. Bu dövrdə “*Aurea mediocritas*” (qızıl orta) ideyası ədalətli və tarazlı münasibətlərin formalaşmasına yönəlmişdi.

Bununla belə, müasir hüquqi konsepsiya kimi balans prinsipi XIX əsr Alman hüquq məktəbində formalaşmağa başlamışdır. Alman inzibati hüququnda dövlətin vətəndaşlara qarşı tətbiq etdiyi inzibati tədbirlərin hüquqi əsaslara və zərurilik meyarlarına uyğunluğu məsələləri geniş müzakirə olunmuş və balans prinsipi bu diskussiyaların mərkəzi predmetinə çevrilmişdir. Almaniya Federal Konstitusiya Məhkəməsinin presedent hüququ balans prinsipinin inkişafında mühüm rol oynamışdır.

Tarixən fərdi hüquqlar üçün mətn baxımından məhdud əsaslar təqdim edən avtoritar hüquq sisteminə fərdi hüquqların gətirilməsi üçün bu prinsip mühüm bir vasitə idi. Dövlətin yalnız fərdi hüquqlara ən az zərər vuracaq vasitələrdən istifadə etməli olduğunu tələb etməklə, proporsionallıq tətbiqi polis səlahiyyətlərinin həyata keçirilməsinə formal məhdudiyyət qoyur və bununla da hüquqlar ideyasını Almaniyanın pozitiv ictimai hüquq sisteminə daxil edirdi. Funksional olaraq, proporsionallıq tələbi – yəni polis səlahiyyətlərinin məqsədə uyğun və ölçülü istifadəsi – qanunun aliliyi prinsipinə uyğun gəlir və onu tamamlayırdı. Hər iki prinsip polis səlahiyyətlərinin formal məhdudiyyətlərinin az olduğu bir sistemdə fərdlərin azadlığını təmin etməyin mexanizmləri idi. Belə ki, qanunun aliliyi prinsipi dövlətə fərdi hüquqlara müdaxiləyə yalnız qanunun açıq icazəsi olduğu halda imkan verir, proporsionallıq prinsipi isə bu müdaxiləni yalnız qanuni məqsədə çatmaq üçün zəruri olan minimum həddə qədər məhdudlaşdırırdı [6, s. 271].

Balans prinsipi daha sonra Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində inkişaf etdirilmişdir. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) tərəfindən qəbul edilən qərarlarda dövlətlərin insan hüquqlarını “zərurət”, “qanunilik” və “demokratik cəmiyyətdə vaciblik” kriteriyalarına uyğun hərəkət etməli olduqları vurğulanır. Bu meyarlar balans prinsipinin əsas sütunlarını təşkil edir. Bu məqamda balans prinsipi – dövlətin hüquq və azadlıqları məhdudlaşdırarkən fərdi maraqla ictimai maraq arasında ədalətli tarazlıq yaratmaq öhdəliyidir. Bu prinsip demokratik hüquqi dövlətin əsas təməl prinsipidir və vətəndaşların hüquqlarının müdafiəsinin hüquqi təminatı kimi çıxış edir.

Avropa İnsan Hüquqları Məhkəməsi qeyd edir ki, başqasının hüquq və azadlıqları Kon-

vensiya və Protokollarla təminat verilən hüquqlar arasında olsa da, onları müdafiə etməyin zəruriliyinin Dövlətləri eyni şəkildə Konvensiyada nəzərdə tutulan hüquq və azadlıqları məhdudlaşdırmağa vadar edə bildiyini də qəbul etmək lazımdır: elə hər kəsin fundamental hüquqları arasında bu daimi tarazlıq axtarışı da "demokratik cəmiyyət"in əsasını təşkil edir. Bu müddəaların ikinci bəndinə uyğun olması üçün, bənzər məhdudlaşdırma və ya müdaxilələr "qanunla nəzərdə tutulmuş" olmalı, həmin bənddə sadalanan legitim məqsədlərə çatmaq üçün edilməli və həmin məqsədlərə çatmaq üçün "demokratik cəmiyyətdə" "zəruri" olmalıdır [9, s. 18].

Təqdim olunan ayrı-ayrı hüquqi aktların məzmununun təhlili nəticəsində belə bir qənaətə gəlmək olur ki, insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasında diqqət yetirilməli olan əsas tələblərdən biri belə məhdudlaşdırmanın və onun mümkünlük hədlərinin, o cümlədən zərurilik şərtlərinin qanunvericilikdə birbaşa təsbit olunması yolu ilə balansın qorunub saxlanılmasıdır.

Əgər hər hansı bir qanuni məqsədlə olsa belə, şəxsin fərdi hüquq və azadlıqları məhdudlaşdırılarkən tətbiq olunan məhdudiyyət gözlənilən nəticədən, daha dəqiq desək, qorunan mənafedən daha artıq və ya əksinə az olarsa, bu zaman sözügedən tarazlıq-balans pozula və daha ağır nəticələr baş verə bilər.

Bu gün hüquq tətbiq etmə praktikasında hüquq və azadlıqlar məhdudlaşdırılarkən balans prinsipinin pozulmasına səbəb olan əsas amillərdən biri qanunvericilikdə zərurət, ictimai maraq, təhlükəsizlik kimi qeyri-müəyyən ifadələrin əsas kimi irəli sürülməsi və onların konkret olaraq nəyi ehtiva etdiyinin açıq ifadə olunmamasıdır. Halbuki hüquqların məhdudlaşdırılması ilə onların pozulması arasında olan əsas fərqsərhəd məhz məhdudlaşdırma zamanı gözlənilən nəticənin və zərurətin olmasıdır.

Bu zaman belə bir sual ortaya çıxır: Gözlənilən nəticə nədir? Məhdudlaşdırma hansı zərurətdən doğur? Həmin məqsədə məhdudlaşdırma olmadan nail oluna bilərmi?

Bu sualların cavabı özlüyündə insan və vətəndaşın hüquq və azadlıqlarının məhdudlaşdırılması hədlərinin müəyyən olunmasında və onun praktiki əhəmiyyətinin öyrənilməsində olduqca mühüm əhəmiyyət kəsb edir.

İlkin olaraq qeyd edilməlidir ki, cəmiyyət daxilində insan təcrid olunmuş bir fərd deyil və digər insanlarla eyni hüquq və azadlıqlara malik ictimai subyektdir, məhz buna görə də onun sahib olduğu hüquqlar ictimai xarakterlidir. Bu mənada hüquq və azadlıq başqasına məxsus hüquqlara zərər vermədən hər şeyi etmək imkanından ibarətdir; buna görə hər bir insanın hüquq və azadlıqlarının həyata keçirilməsi yalnız cəmiyyətin digər üzvlərinin hüquqlarını, o cümlədən dövlət təhlükəsizliyini təmin edən hədlərlə məhdudlaşdırılır; bu hədlər və onların tətbiqi əsasları ancaq qanunla müəyyənləşdirilə bilər.

Bu hüquqlar yalnız milli təhlükəsizliyi, ictimai asayişi, ictimai sağlamlığı və ya mənəviyyatı, yaxud başqalarının hüquq və azadlıqlarını qorumaq məqsədilə məhdudlaşdırıla bilər. Məhdudiyyətlər qanunla nəzərdə tutulmalı, demokratik cəmiyyətdə zəruri olmalı və Paktda tanınan digər hüquqlarla ziddiyyət təşkil etməməlidir. Məhdudiyyətlərin tətbiqi üçün əsas verən şərtlər bilavasitə qanunda göstərilməlidir. Dövlətlər belə məhdudiyyətləri müəyyən edən qanunları qəbul edərkən həmin məhdudiyyətlərin hüququn mahiyyətinə toxunmamasını təmin etməlidirlər. Qanunlarda dəqiq meyarlar müəyyən edilməli və icraçı orqanlara məhdudiyyətsiz səlahiyyət verilməməlidir [7, m. 12].

Sözügedən müddəalardan da aydın olduğu kimi, hüquq elmi və məhkəmə təcrübəsində hüquq və azadlıqların məhdudlaşdırılmasında geniş tətbiq olunan balans-mütənasiblik prin-

sipi hüquqi münasibətlərdə ədalətli tarazlığın təmin olunmasının mühüm hüquqi alətinə çevrilmişdir. Bu tarazlığın təmin edilməsi üçün də məhdudiyyət anlayışının aydınlaşdırılması və onun kriteriyalarının dəqiq müəyyən olunmasının mühüm hüquqi əhəmiyyəti vardır.

Müasir dövrdə insan hüquq və azadlıqlarının məhdudlaşdırılması zamanı yaranan ən böyük problemlərdən biri də dövlətlərin və onların hüquq mühafizə orqanlarının "məhdudlaşdırma" ilə "pozuntunu" ayırd edən konstitusion kriteriyalara formal yanaşması, xüsusilə də proporsionallıq və zərurət meyarlarının real tətbiq edilməməsi və ya ümumiyyətlə qanunvericilikdə bu meyarların dəqiq müəyyən olunmuş əlamətlərinin təsbit olunmamasıdır.

Lakin burada əsas diqqət yetirilməli məqam hüquq və azadlıqların məhdudlaşdırılmasının onların pozulması və ya təhrif olunması kimi şərh olunmamasıdır. İnsan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılması, yəni qanun çərçivəsində edilən müdaxilə mahiyyət etibarilə hüququ aradan qaldırmır, sadəcə istifadə formasını və ya həddini tənzimləyir. Bundan fərqli olaraq hüquq pozuntusu – qanunsuz, ölçüsüz və hüququn özünü sıradan çıxaran hərəkət və ya hərəkətsizlikdir.

Habelə insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılması zamanı balans prinsipinə riayət olunması üçün ilk olaraq hüquqlara belə müdaxilə imkanı və onun tətbiqi şərtlərinin qanunvericilikdə birbaşa ifadə olunması mühüm əhəmiyyət kəsb edir. Məsələn, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən, Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlaşdırıla bilər. İnsan hüquqlarına və azadlıqlarını məhdudlaşdıran qanunda məhdudlaşdırılan hüquq və ya azadlıq, habelə Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddəsi göstərilməlidir. İnsan hüquqlarına və azadlıqlarına qoyulan məhdudiyyətlər həmin hüquqların və azadlıqların mahiyyətini dəyişməməlidir [2, m. 3].

Eyni zamanda, insan hüquqlarına və ya azadlıqlarına qoyulan məhdudiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında və sözügedən Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır. Bu məqamda qanuni məqsəd dedikdə ümumi şəkildə dövlət təhlükəsizliyi mənafeləri, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması, cinayətin və iğtişaşların qarşısının alınması, ictimai təhlükəsizliyin qorunması, ictimai qaydanın təmin edilməsi, ölkənin iqtisadi rifahı mənafeləri, dövlətin ərazi bütövlüyü mənafelərinin təmin edilməsi məqsədi ilə, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi üçün, məxfi qaydada əldə edilmiş məlumatın açıqlanmasının qarşısının alınması və ya məhkəmənin nüfuzunun və qərəzsizliyinin təmin edilməsi məqsədi ilə məhdudlaşdırma başa düşülməlidir.

Həmçinin məhdudiyyətlərin məqsədə uyğun olması kifayət deyil; onlar həmin məqsədlər üçün zəruri olmalıdır. Məhdudiyyətlər balans prinsipinə uyğun olmalı, müdaxilə minimum səviyyədə olmalı, hüququn həyata keçirilməsinə ən az mane olan vasitə seçilməlidir. Balans prinsipi təkcə qanunda deyil, həm də inzibati və məhkəmə orqanlarının tətbiqində qorunmalıdır. Qanunların tətbiqində çox vaxt 12-ci maddənin tələblərinə uyğunluq təmin edilmir. Məhdudiyyətlər aydın hüquqi əsasa malik olmalı, zərurilik və balans tələblərini ödəməlidir [7, m. 12].

Fikrimizcə, deyilənlərə əsasən, insan hüquq və azadlıqları məhdudlaşdırılarkən tətbiq edilməli olan balans prinsipi aşağıdakı dörd əsas elementə söykənir:

1) Qanunauyğunluq: Hüquq və azadlıqlar yalnız qanunla və onun çərçivəsində məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Konstitusiyasının 71-ci maddəsinə əsasən, belə müdaxilələr yalnız qanuni əsaslarla və səlahiyyətli orqanlar tərəfindən həyata keçirilə bilər.

2) Qanuni məqsəd: Hüququn məhdudlaşdırılması yalnız Konstitusiya və beynəlxalq konvensiyalarda nəzərdə tutulan məqsədlərlə həyata keçirilə bilər (məsələn, milli təhlükəsizlik, ictimai asayiş, digərlərinin hüquq və azadlıqları və s.).

3) Zərurilik: Hüququn məhdudlaşdırılması dövlətin məqsədinə çatmaq üçün zəruri və qaçılmaz olmalıdır.

4) Mütənasiblik: Dövlətin tədbiri gözlənilən nəticəyə nisbətdə həddindən artıq olmamalıdır. Ən az müdaxilə ilə məqsədə nail olunmalıdır. Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır [1, m. 71].

Bütün demokratik cəmiyyətlərdə belə məhdudlaşdırma qanunverici orqan tərəfindən müəyyən olunur və hüquq mühafizə orqanları vasitəsilə qanunamüvafiq həyata keçirilir.

Digər bir tərəfdən balans prinsipinin praktiki əhəmiyyəti məhkəmə nəzarəti mexanizmi vasitəsilə həyata keçirilir. Belə ki, insan hüquqlarına hər hansı bir məhdudiyyət qoyularkən riayət edilməli olan tələblər gözlənilmədikdə şəxsin baş vermiş və ya baş verə biləcək potensial pozuntuya qarşı məhkəməyə müraciət edə bilmə və səmərəli hüquqi müdafiə vasitələrinə malik olması özlüyündə balans prinsipinin gələcək inkişafında mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi və ümumi məhkəmələr bu prinsipi tətbiq etməklə, bir tərəfdən hüquq və azadlıqlara qarşı yönəlmiş müdaxilələrin ədalətli və qanuni olub-olmadığını qiymətləndirir, digər tərəfdən isə qanunsuz müdaxilə aşkar olunduğu təqdirdə hüquq bərpa funksiyası ilə mövcud pozuntunu aradan qaldırmaqla praktikada bu kimi hallara qarşı vahid məhkəmə təcrübəsi formalaşdırır.

Bu zaman balans prinsipi hüquq və azadlıqların geniş spektrində ifadə olunur:

İfadə azadlığı: Mətbuat və informasiya azadlığı dövlətin ictimai maraqlarla (məsələn, milli təhlükəsizlik, milli etnik tolerantlıq) müdaxiləsi ilə toqquşduqda balans prinsipi tətbiq edilir.

Şəxsi həyata hörmət hüququ: Dövlətin nəzarət tədbirləri (məsələn, telefon dinləmələri) yalnız qanunla müəyyən edilmiş, legitim və zəruri hallarda mümkün olmalıdır.

Din azadlığı və sərbəst toplaşma: Dövlət bu azadlıqlara müdaxilə edərkən ictimai təhlükəsizlik, əxlaqi dəyərlər və digərlərinin hüquqları nəzərə alınaraq proporsional yanaşma tətbiq etməlidir.

Fövqəladə hallarda hüquqların məhdudlaşdırılması: Pandemiya və ya hərbi vəziyyət kimi fövqəladə hallarda hüquq və azadlıqların məhdudlaşdırılması yalnız balans prinsipinə uyğun həyata keçirilə bilər.

## Nəticə

Balans prinsipi müasir hüquqi sistemlərdə hüquq və azadlıqların müdafiəsinin və onların qanuni məhdudlaşdırılmasının əsas hüquqi mexanizmlərindən biridir. Bu prinsip vasitəsilə dövlətin legitim maraqları ilə fərdin fundamental hüquqları arasında ədalətli və zəruri tarazlıq təmin edilir. Həm beynəlxalq, həm də milli hüquq sistemlərində balans prinsipinin geniş tətbiqi hüququn aliliyinin və insan hüquqlarının qorunmasının vacibliyini bir daha təsdiq edir. Azərbaycan hüquq sistemində bu prinsipin daha effektiv və sistemli tətbiqi insan hüquqlarının qorunması sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsinə mühüm töhfə verə bilər.

Aparılan təhlil göstərir ki, insan hüquq və azadlıqlarının məhdudlaşdırılması zamanı gözlənilməli olan balans prinsipinin müasir dövrdə qarşılaşdığı əsas problem məhdudiyyətlərin tətbiqində qanunilik, legitim məqsəd, zərurət

və proporsionallıq kimi konstitusion meyarların çox zaman formal xarakter daşımasıdır. Qanunvericilikdə mövcud olan geniş və qeyri-müəyyən anlayışlar, məhkəmə nəzarətinin zəifliyi, "milli təhlükəsizlik" istisnasının geniş şərh edilməsi, həmçinin rəqəmsal nəzarət alətlərinin sürətlə genişlənməsi məhdudlaşdırma ilə pozuntu arasındakı sərhədin bulanmasına səbəb olur. Bu isə insan hüquqlarının müdafiəsini zəiflədərək hüquqi dövlət prinsiplərinə xələl gətirir.

Odur ki, qanunvericilikdə "ictimai maraq", "əxlaq", "təhlükəsizlik", "zərurət" kimi elastik ifadələr konkret hüquqi meyarlarla əvəz edilməli, məhdudiyyətlərin sərhədləri və tətbiq prosedurları qanunvericilikdə açıq şəkildə göstərilməlidir. Konstitusiya nəzarət orqanları məhdudiyyətləri sərt hüquqi filtrlərdən keçirməli, proporsionallıq təhlilini formalizmdən uzaq, faktlara əsaslanan qiymətləndirmə ilə aparmalıdır. Hüququ məhdudlaşdırılan şəxsin isə dərhal məhkəməyə müraciət etməsinə, təxirəsalınmaz hüquqi müdafiə tədbirlərindən yararlanmasına və effektiv hüquqi yardıma çıxışına təminat verilməlidir.

Nəticə etibarilə, insan hüquq və azadlıqlarının məhdudlaşdırılması yalnız konstitusion meyarlara uyğun, sübut yükü və prosedur təminatları ilə çərçivələnmiş halda hüquqi mahiyyət kəsb edir. Təklif olunan islahatlar dövlətin müdaxilə səlahiyyətlərini balanslaşdırır və hüquqların pozuntusu riskini minimuma endirməklə hüquqi dövlətin möhkəmləndirilməsinə xidmət edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**:


1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər): [Elektron resurs]/URL: http://www.e-qanun.az/framework/897
2. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 24 dekabr 2002-ci il tarixli 404-IIKQ nömrəli Konstitusiya Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/1881
3. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2011. – 760 s.
4. Türkiyə Respublikasının Konstitusiyası: 18 oktyabr 1982-ci il tarixli, № 2709. – Ankara, 1982.
5. Almaniya Federativ Respublikasının Əsas Qanunu: 23 may 1949-cu il. – Bonn, 1949.
6. Amerika balanslaşdırması və Alman proporsionallığı: formalaşma tarixi // International Journal of Constitutional Law. – 2010. – C. 8, № 2. – S. 263–286.
7. BMT İnsan Hüquqları Komitəsi. Ümumi şərh № 27 : Maddə 12 (Hərəkət azadlığı). – BMT, 1999.
8. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi. – BMT, 1948.
9. S.A.S. Fransaya qarşı işi üzrə qərar (S.A.S. v. France). Avropa İnsan Hüquqları Məhkəməsi. – 2014.


**Ализаде Айтен Алемшах гызы,**
магистрант II курса по специализации «Государственное право»
юридического факультета Бакинского государственного университета

## ИСТОРИЯ И СУЩНОСТЬ ПРИНЦИПА БАЛАНСА ПРИ ОГРАНИЧЕНИИ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА И ГРАЖДАНИНА

### РЕЗЮМЕ

Одной из основных задач современных правовых государств является обеспечение и защита прав и свобод человека и гражданина. Поскольку права человека по своей сущности носят общественный характер, они не ограничиваются рамками, принадлежащими конкретному лицу. Это выражается в том, что права одного человека существуют лишь до той границы, где начинают действовать права и свободы других лиц. В этом контексте в

отдельных случаях ограничение этих прав становится необходимым и неизбежным — когда этого требуют права и свободы других людей, а также государственная безопасность. При применении таких ограничений государственные органы должны соблюдать определённые требования, в особенности принцип баланса и соразмерности. В противном случае чрезмерные ограничения могут привести к нарушению прав и свобод самого лица, в отношении которого они применяются. В данной статье анализируются сущность и историческое развитие принципа баланса, применяемого при ограничении прав и свобод человека, а также особенности его практического применения.

**Alizada Aytan Alamshah,**
Second-year Master's student in the "State Law"
specialization Faculty of Law, Baku State University

**THE HISTORY AND ESSENCE OF THE PRINCIPLE OF BALANCE IN THE RESTRICTION OF HUMAN AND CIVIL RIGHTS AND FREEDOMS**

**SUMMARY**

One of the main duties of modern legal states is the protection and guarantee of human and civil rights and freedoms. Since human rights, by their essence, possess a public character, they are not limited to boundaries belonging to a specific individual. This is expressed in the fact that the rights of one person exist only up to the point where the rights and freedoms of other persons come into effect. From this perspective, in certain cases, the restriction of these rights becomes necessary and unavoidable when required by the rights and freedoms of others, as well as by state security. During such restrictions, state authorities must adhere to certain requirements, particularly the principle of balance and proportionality. Otherwise, excessive restriction may lead to a violation of the rights and freedoms of the very person to whom the limitations are applied. This article analyzes the essence and historical development of the balance principle applied in the restriction of human rights and freedoms, as well as the features of its practical implementation.

**Redaksiyaya daxilolma tarixi: 08.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 16.01.2026**
**Çapa qəbul olunma tarixi: 17.01.2026**